**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2024.2.114**

**TOĞRUL XƏLİLOV**

# ŞAHBUZ VƏ KƏNGƏRLİ RAYONLARININ ORTA ƏSR YAŞAYIŞ YERLƏRİ

*Naxçıvan Muxtar Respublikası ərazisində xeyli sayda orta əsr abidələri vardır. Onlardan əldə edilən arxeoloji materialların tədqiqi nəticəsində sənətkarlığı, təsərrüfat sahələrini, tayfaların iqtisadi və mədəni əlaqələrini, insanların maddi və mənəvi mədəniyyətini öyrənmək mümkündür. Bu məsələ hərtərəfli öyrənilmədiyi üçün araşdırdıq. Tədqiqat zamanı abidələrin əraziləri müəyyən edilib, onlardan əldə edilən arxeoloji materiallar sistemləşdirilib. Müəyyən edilib ki, Şahbuz və Kəngərli rayonları ərazisindəki orta əsr abidələri Azərbaycan arxeologiyasında xüsusi yer tutur.*

**Açar sözlər:** *Orta əsr, yaşayış yeri, keramika, Şahbuz, Kəngərli.*

**Giriş.** Azərbaycan arxeologiyasının ən aktual və maraqlı məsələlərindən birini Naxçıvandakı Orta əsr abidələrinin xarakteristikasını və yayılma arealını öyrənmək təşkil edir. Naxçıvan diyarının digər bölgələri kimi  Şahbuz və Kəngərli rayonlarının ərazisində də, bu dövrə aid xeyli arxeoloji abidə olsa da, onların xarakteristikası, Azərbaycan və dünya arxeologiyasında yeri və əhəmiyyəti kompleks şəkildə öyrənilməmişdir. Ona görə də qeyd olunan məsələ tərəfimizdən tədqiqat obyekti seçilmiş, öyrənilmişdir. Tədqiqat zamanı müqayisəli, elmi yanaşma metodundan, ədəbiyyat və muzey materiallarından, kəşfiyyat xarakterli tədqiqatlar zamanı əldə olunmuş artefaktlardan istifadə edilmişdir.

**Yaşayış yerlərinin yayılma arealı və onlardan aşkar olunmuş keramika məmulatları.** Naxçıvan Muxtar Respublikasının ərazisi dağlıq, dağətəyi və düzənlik torpaqlardan ibarətdir. Düzənlik ərazidəki aran torpaqlar haliyyədə Arazboyunu əhatə edərək şimal-qərbdən cənub-şərqə doğru uzanır. Bu torpaqlar cənub-şərqdə Araz çayı ilə hüdudlanmış Araz ovalığını, şimaldan isə Arpaçay, Naxçıvançay və Gilançay vadilərinin Araza qovuşan hissəsini əhatə edir.  Əraziyə Sədərək, Şərur, Böyükdüz, Culfa, Ordubad, Naxçıvan maili düzənlikləri daxildir. Onun ən geniş yeri şimal qərbdə 20 kilometr, ən dar yeri isə cənub-şərqdə 4-5 kilometrdir. Onun yüksəklik göstəricisi 600-1200 metr arasındadır [3, s. 43].

Dağlıq ərazilər orta və yüksək dağlıq qurşaq olaraq bir-birindən fərqlənir. Orta dağlıq qurşaqda, dağətəyində olan torpaqlar  muxtar respublikanın şimal-qərb, mərkəz və cənub-şərq hissələrini əhatə edir. Yüksək dağlıq qurşaq, orta dağlıq qurşağa nisbətən dar bir zolaq təşkil edərək Zəngəzur silsiləsi boyunca uzanır. Orta dağlıq qurşaqdakı ərazilərdən fərqli olaraq yüksək dağlıq qurşaqdakı torpaqlarda maldarlığın inkişafı üçün əlverişli şərait, zəngin alp və subalp çəmənlikləri var. Dağlıq qurşaqda relyef göstəricisi 1200-1300 metrdən 2000-2300 metrə qədər ucalır. Subalp çəmənliklər 2300-2600 metr yüksəklikdə Kuküçay hövzəsindən başlayaraq Əlincəçay hövzəsinə qədər ensiz bir zolaq şəklində uzanır. Alp çəmənlikləri isə əsasən Salvartı, Ağdaban, Küküdağ, Ağdağ, Qapıcıq dağlarını əhatə edir [3, s. 44]. Hər iki qrup ərazidə Orta əsrlər dövrünə aid xeyli arxeoloji abidələr var. Onlar yaşayış yerlərindən, qalalardan, körpülırdən, nekropollardan ibarətdir.

Naxçıvan Muxtar Respublikasının bütün bölgələri kimi Şahbuz və Kəngərli rayonları da arxeoloji abidələrlə zəngindir. Onların bir qrupu Orta əsrlər dövrünə aiddir. Yaşayış yerlərindən, nekropollardan, körpülərdən, memarlıq abidələrindən ibarət olan hər bir abidə

Azərbaycan tarixində özünəməxsus yer tutur və mühüm elmi əhəmiyyət daşıyır. Onların hər birini ayrı-ayrılıqda tədqiq etməklə Naxçıvan tarixini daha dərindən öyrənmək mümkündür. Yaşayış yerləri plan, konstruksiya və tikinti texnikasına görə ətrafı hasarlı və hasarsız olmaqla iki yerə bölünmüşdür. Ətrafı hasarlı yaşayış məskənlərinin əksəriyyətinin divarları çay daşı və möhrə ilə tikilmişdir. Bir qrup yaşayış məskənləri isə nisbətən mürəkkəb quruluşlu olmuş, özünəməxsus tikinti texnikası ilə fərqlənmişdir. Onların tikintisinə daha çox vaxt və əmək sərf edilmişdir. Divarların hörgüsündə yonulmamış iri qaya parçalarından istifadə edilmişdir. İstər dağlıq və dağətəyi ərazidə, istərsə də Araz vadisində qeydə alınmış yaşayış yerlərinin bir qrupunun düzgün planlı tikinti qalıqları aşkar edilməmişdir. Bəzi yaşayış məskənlərində isə nisbətən salamat qalmış divar qalıqları müşahidə edilmişdir. Araz vadisindəki yaşayış yerlərindən fərqli olaraq dağlıq və dağətəyi yerlərdəki abidələrin əksəriyyətinin ətrafı hasarsız olmuşdur. Yaşayış məskənlərinin bir qrupunda evlər daş təməl üzərində möhrə və çiy kərpiclə inşa edilmişdir. Hər bir yaşayış məskəninin salınmasında insanların həyat tərzi əsas yer tutmuşdur. İnsanlar məskunlaşdıqları yerlərin təbii şəraitinə görə oturaq və mövsümi həyat tərzi keçirmişlər. Aran ərazidəki torpaqlarda insanlar əsasən oturaq həyat tərzi keçirmiş, əkinçiliklə məşğul olmuşlar. Mövsümi həyat tərzi keçirən tayfalar əsasən dağlıq və dağətəyi yerlərdə məskunlaşmış, maldarlıqla məşğul olmuşlar. Onların mövsümi həyat tərzi keçirməsinin başlıca səbəbi heyvan sürülərini bol yemlə təmin etmək zərurəti olmuşdur. Bu vəziyyət isə qədim maldar tayfaların öz heyvan sürülərini yaşayış məskənlərinin yaxınlığında deyil, bir qədər uzaqlarda, çoxlu yem ehtiyyatına malik yerlərdə [əsasən dağlıq və dağətəyi zonalarda] otarılmasına səbəb olmuşdur. Mövsümi həyat tərzi keçirən, yarımköçəri yaylaq maldarlığı ilə məşğul olan maldar tayfaların əsasən dağlıq və dağətəyi yerlərdə məskunlaşması həmin ərazidə onlarla bağlı arxeoloji abidələrin yaranmasına səbəb olmuşdur. Dağlıq və dağətəyi yerlərdə məskunlaşmış tayfaların mövsümi həyat tərzi keçirməsi nəticəsində oradakı arxeoloji abidələrdə aran ərazidəki yaşayış yerləri ilə müqayisədə sox az mədəni təbəqə toplanılmış, mədəni təbəqələşmə prosesi zəif getmişdir. Oradakı yaşayış yerlərinin bir çoxunda tikinti qalıqlarının təbii aşınmaya məruz qalması nəticəsində onların düzgün planlı tikinti qalıqları aşkar olunmamış, bəzilərində nisbətən salamat qalmışdır. Onlar ölçülərinə və tikinti texnikasına görə Azərbaycanın digər bölgələrində olan eyni dövrə aid abidələrdən fərqlənsə də, bəzi xüsusiyyətlərinə görə bənzərlik təşkil etmişlər.

Kəngərli rayonu Azərbaycanın cənub-qərbində yerləşir. Bu rayon Azərbaycan Respublikası Prezidentinin 19 mart 2004-cü il tarixli qərarı ilə yaradılmışdır. Ərazisi 681,94 $km^2$-dir. Rayonda 1 qəsəbə (Qıvraq qəsəbəsi) və 10 kənd vardır. Rayon Qıvraq qəsəbəsindən Çalxanqala, Yurdçu, Xıncab, Təzəkənd, Yeni Kərki, Xok, Qabıllı, Qarabağlar və Şahtaxtı kəndlərindən ibarətdir. Rayonun şimal hissəsi Dərələyəz silsiləsindən ibarət dağlıq ərazilərdir. Cənub hissəni Korosman silsiləsi (900 m), Böyükdüz və Kəngərli düzü (800-1300 m) təşkil edir (şəkil 1). Bu ərazi qədim zamanlardan bəri insanlar üçün əlverişli bir məskən olmuşdur, çünki həm dağlıq, həm də düzənlik əraziləri ilə fərqlənir. Strateji mövqeyi ticarət yollarının yaxınlığında yerləşməsi ilə bağlıdır. Burada yerləşən abidələr qədim insanların həyat tərzi və mədəniyyəti haqqında dəyərli məlumatlar verir. Qazıntılar zamanı aşkar olunmuş məişət əşyaları, keramika nümunələri və digər tapıntılar orta əsr dövründə bu ərazidə yaşamış insanların maddi və mənəvi mədəniyyətini öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıyır. Rayon ərazisindəki Orta əsr yaşayış yerlərinə Böyükdüz, Cinli dərə, Şahtaxtı, Yurdçu, Xaraba-Qıvraq, Qarabağlar, Kora-gözə, Üçqulaq və digər yaşayış yerlərini nümunə göstərmək olar. Onlar Orta əsrlər dövrünün müxtəlif mərhələlərinə aiddir.




**Şəkil 1.**

Şahbuz rayonu Kiçik Qafqazın Dərələyəz silsiləsinin cənub və Zəngəzur silsiləsinin qərb yamaclarında yerləşir. Səthi, əsasən, dağlıqdır. Ən yüksək nöqtələri Zəngəzur silsiləsində Salvartı dağı (3160 m) və Keçəldağ (3115 m), Dərələyəz silsiləsində Kükü dağıdır (3120 m). Biçənək aşırımı (2346 m) rayonun şimalındadır. Rayon 8 avqust 1930-cu ildə yaradılmışdır. 4 yanvar 1963-cü ildə ləğv edilərək Naxçıvan (1978-ci ildə Babək) rayonuna birləşdirilmişdir. 6 yanvar 1965-ci ildə yenidən müstəqil rayon kimi təşkil edilmişdir. Şahbuz rayonu şərqdən və şimaldan Ermənistanla həmsərhəddir, 25 yaşayış məntəqəsini birləşdirir. Rayon 22 inzibati ərazi dairəsini əhatə edir. Onlardan biri qəsəbə (Badamlı), biri isə şəhərdir (Şahbuz). Şahbuz şəhəri rayon mərkəzidir. Qarababa, Mahmudoba, Biçənək, Aşağı Qışlaq, Yuxarı Qışlaq, Kükü, Badamlı, Şahbuzkənd, Keçili, Külüs, Kiçikoba, Daylaqlı, Mərəlik, Sələsüz, Şada, Güney Qışlaq, Qızıl Qışlaq, Ayrınc, Kolanı, Ağbulaq, Nursu, Gömür, Türkeş Şahbuz rayonunun kəndləridir (şəkil 2). Bu rayonun ərazisində də, xeyli sayda Orta əsr yaşayış yerləri vardır. Bu cür qədim yaşayış yerlərinə Şapurqalanı, Şahbuzu, Köhnə qalanı, Qızıltapılanı, Ordunu, Qızıl Qışlağı, Yarnıxı və digərlərini nümunə göstərmək olar.




**Şəkil 2.**

Şahbuz və Kəngərli rayonlarının ərazisindəki Orta əsr yaşayış yerlərində geniş miqyaslı arxeoloji qazıntılar aparılmamış, ancaq kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir [1, s. 201-287]. Tədqiqat zamanı onlardan müxtəlif formalı şirli və şirsiz keramika məmulatları aşkar olunmuşdur (şəkil 3).





**Şəkil 3.**

Şahbuz və Kəngərli rayonlarının ərazisindəki arxeoloji abidələrdə aşkar olunmuş Orta əsr dövrü keramikalarının naxış motivi, tipoloji xüsusiyyəti və digər məsələlərlə bağlı aparılan müqayisəli araşdırma zamanı məlum olur ki, bu dövrdə istər şirli, istərsə də şirsiz qabların keyfiyyətinə, səliqəli hazırlanmasına xüsusi fikir verilmişdir. Qabların hamısının formaca eyni olmaması onların ayrı-ayrı sənətkarlar tərəfindən düzəldilməsi ilə bağlı olmuşdur. Təsərrüfat qabları, əsasən süfrə və mətbəx qabları narın gildən hazırlanmışdır. İri qum qarışıqlı gildən hazırlanmış qablar möhkəmliyi və odadavamlılığı, narıngilli qablar isə hamar səthli və incə olmaları ilə seçilirlər. Hər iki qrup qablarda dulus çarxının izlərinin müşahidə olunması onların hamısının dulusçu dəzgahında düzəldilməsi ilə bağlıdır. Keramikaların hamısının formalarının eyni olmaması onu göstərir ki, bu dövrlərdə Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da bütün dövrlərdə olduğu kimi Orta əsrlərdə də gil qabların hamısı eyni dulusçu emalatxanasının məhsulu olmamış, ayrı-ayrı sənətkarlar tərəfindən düzəldilmişdir.

İstər şirli, istərsə də şirsiz qabların çox çeşidli olması onların müxtəlif məqsədlərlə istifadə edilməsi ilə əlaqədar olmuşdur. Onların düzəldilməsində yerli dulusçular Şərq mədəniyyətindən bəhrələnsə də, Naxçıvanın keramika məktəbi üçün səciyyəvi olan cəhətləri də qoruyub saxlamışlar. Şirli keramikaların istehsal texnologiyası şirsizlər üçün zəruri olan texnoloji proseslərin hamısını təkrarlamaqla yanaşı şirin və rəngin hazırlanması, qabların müvafiq üsullarla naxışlanması kimi bir sıra əlavə texnoloji prosesləri də əhatə etmişdir. Hər bir qrupa daxil olan qablar texniki xüsusiyyətlərinə və bədii işlənməsinə görə müxtəlif çalarlara malik olmuşdur. Şirlə əsas etibarilə süfrə qabları örtülmüşdür. Açıq formaya malik qablar (kasa, boşqab, duzqabı və s.) əsasən içəridən, içərisi görünməyən qablar isə (bardaq, çıraq və s.) çöldən şirlənmişdir. Bəzi iri boğazlı qablar hər iki tərəfdən şirlə örtülmüşdür. Onların bədii işləməsində istifadə olunan bir çox texniki üsullar, həndəsi, nəbati, zoomorf ornamentlər Orta və Yaxın Şərq ölkələri, həmçinin Cənubi Qafqazın keramikaları ilə oxşar xüsusiyyət daşımışdır. Keramika məmulatlarının üzərindəki ornamentlər sadə və mürəkkəb süjetli olmuşdur. Ən çox həndəsi ornamentlərdən istifadə edilmişdir. Həndəsi ornamentlərlə yanaşı, bu dövrdə

nəbati və zoomorf ornamentlər də geniş yayılmışdır. Şirsiz qabları fərqləndirən əsas əlamətlər isə onların gilinin rəngi, ağız kənarlarının, boğazlarının, gövdələrinin forması olmuşdur. Onların içərisində küpə, kasa, çölmək tipli qablar çoxluq təşkil etmişdir. Onlar texniki xüsusiyyətləri ilə yanaşı, bədii işlənməsinə, xüsusilə rəsmlərin kompozisiyasına görə müxtəlif çalarlara malikdir. Parlaq şirin altında qabın keramikasının və ya qırmızı boyanmış səthinin anqobla naxışlanması, şəffaf qurğuşun şirin altında qabın səthinin marqanes rənglə və yaxud anqobla naxışlanması, yaşıl, sarı rənglə, anqob astar üstünə enli və ya ensiz xətlərin çəkilməsi, anqob astar üstünə marqanes və yaşıl rənglərlə naxışların vurulması və digər faktları bunu nümunə göstərmək olar.

Sadə qabların üzərinin naxışlanması ilə bağlı aparılan araşdırma zamanı məlum olur ki, onların naxışlanmasında cızma və qazma üsulundan geniş istifadə edilmişdir. Qazıma naxışlarla ilk orta əsr qablarının əsasən gövdə, boğaz, qismən də ağız və qulpları bəzədilmişdir. Bu naxışların hamısı eyni formalı və məzmunlu deyildir. Bu üsulla qablara naxış vurarkən, usta ilk növbədə onları tərkibində qalmış qarışıqlardan təmizləyir və üstünü cilalayır sonra ucu iti alətlə onun üzərinə istədiyi naxışı vurur. Qabların boğaz və qulplarında ən sadə dalğavarı düz xətt və nöqtələrdən, novdan aşağıda və qabın çiynində isə nöqtələrdən ibarət naxışlara tez-tez təsadüf edilir. Qazıma və yapma naxışlardan fərqli olaraq, basma naxışla ilk Orta əsr qablarının ancaq gövdəsi naxışlanmışdır. Qabların üzərindəki bu naxışları içəridən və ya çöldən basma üsulu ilə vurmuşlar. Basma üsulu ilə vurulmuş naxışlar qabın gövdəsini əhatə edən qabırğayabənzər xətlərdən və dairəvi nöqtələrdən ibarətdir. Onu da qeyd etmək lazımdır ki, qazıma, yapma naxışlardan fərqli olaraq basma naxışlar qabın gövdəsi hazırlandıqdan sonra vurulmuşdur. Çünki bu naxışlarla bəzədilən qabın gövdəsi bir neçə dəfə içəri və ya çölə basılır. Usta qabın mütənasibliyini saxlamaq üçün naxışlanma zamanı bir əlini naxışlanan yerin üstünə qoyur. Əks halda hazırlanan qabın gövdəsi öz əvvəlki formasını itirər. Ona görə də, üzərində basma naxış vurulacaq qabların boğazı formalaşdırılmır. Qabın üzərində basma naxışlar başa çatdırıldıqdan sonra boğazı yapışdırılır. İçəridən basma üsulu ilə naxışlanmış qabların gövdəsində qabırğavarı, bir-birinə paralel naxışlar olur. Bəzi qabların üzərində qabırğavarı xətlərlə yanaşı mahmızvarı çıxıqlar da olur. Üzəri qazıma, yapma, basma naxışlı qablarla bərabər möhürləmə üsulu ilə bəzədilmiş qablar da vardır. Üzəri möhürləmə üsulu ilə naxışlanmış qablar qeyd etdiyimiz, naxışlı qablara nisbətən azdır. Onlara naxış dulus dəzgahın üstündə vurulur. İlk növbədə usta ağacdan, sümükdən, daşdan və s. materiallardan qabın üzərinə vurulacaq naxışın möhür formasını hazırlayır. Gil qab ustaları onun yumşaq yapışmaması və naxışların aydınlığı üçün müxtəlif yağlardan istifadə etmişlər. Bir sıra qabların üzərində bütün üsullarla (yapma, qazıma və basma) vurulmuş naxışlara təsadüf olunur. Belə qarışıq naxışlar əsasən kiçik və ortaölçülü süddanbiçimli qabların üzərində daha çoxdur. Bu qablarda qazıma naxışlara gövdədə, bəzən də qulpunda, yapma naxışlara isə novun kənarlarında rast gəlirik. Üzəri qarışıq naxışlı qablardan biri qonur rəngli, üzəri cilalanmış eşmə qulplu, gövdəsi az xaşal süddanbiçimli qabdır. Onun qulpunda, boğazında və novunda quş ləpiri formasında qazıma, gövdə ilə boğaz arasında isə şiş çıxıntılar və gövdəsində içəriyə doğru basma yarımdairəvi xətlərdən ibarət naxışlar vardır. Belə qablar dulus ustaları tərəfindən xüsusi diqqətlə hazırlanmışdır. Qarışıq naxışlı qabları hazırlayarkən ustalar onun yaxşı və yığcam olmasına xüsusi fikir vermişlər.

Qabların naxışlanmasında istifadə olunan əmək alətləri müasir kustar dulusçuluq alətlərinə yaxın olmuşdur. Müasir kustar dulus ustalarının hazırladıqları qabların üzərini bəzəyən

naxışlarla ilk orta əsr naxışlarının qazılma formasına diqqət yetirdikdə onların bir-birinə oxşar alətlərlə cızıldığını görmək çətin deyildir. Qabların üzərinə çəkilmiş naxışlar sırf bəzək mahiyyəti daşımamışdır. Əlbəttə, əvvəlki dövrlərdə olduğu kimi, ilk orta əsr ustaları da bu naxışlarla qabların bədii mənasını və ümumi forma gözəlliyini verməklə, həm də müəyyən məzmun ifadə etməyə çalışmışlar. Qabın üzərində olan naxışların incə, səliqəli və müəyyən məzmunlu olması ustanın istifadə etdiyi naxışlama alətlərinin mükəmməlliyindən asılı olmuşdur.

Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvan diyarının Şahbuz və Kəngərli rayonları ərazisində də şirsiz qablardan IX-XI əsrlərdə geniş istifadə edilmişdir. XI əsrdən etibarən şirli qablar düzəldilmişdir. XI-XIII əsrlərdə şirli keramika məmulatının istehsalı geniş vüsət almışdır. Şirli qabların üzəri göy, yaşıl, sarı, qəhvəyi və s. rənglərlə örtülmüşdür. Onların bir qismi sadə olsa da, əksəriyyətinin üzəri həndəsi, nəbati, zoomorf ornamentlərlə naxışlanaraq müəyyən süjetləri, onları düzəldən dulusçuların sənətkarlıq qabiliyyətlərini əks etdirir. İlk Orta əsrlər dövrünə aid keramika məmulatı, gil qablar, əvvəlki dövrün gil məmulatından fərqlənsə də, sonrakı dövrə aid olanlarla oxşarlıq təşkil edir. Bu fərq əsasən gil məmulatının miqdarında deyil, onun texnologiyasında, xüsusilə formasında daha aydın hiss olunur. Gil qabların əksəriyyətinin IX-XIII əsrlərə aid olmasının başlıca səbəblərindən birini Azərbaycanın bütün bölgələrində olduğu kimi [5, s. 10] Naxçıvanda da, həmin dövrdə keramika istehsalının yüksək inkişaf səviyyəsində olması təşkil edir.

Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, Azərbaycanda dulusçuluqda IX əsrdən başlayan inkişaf yüksələn xətt üzrə davam edərək XII-XIII əsrədək davam etmişdir. XIII əsrdə yüksək səviyyəsində olmuşdur. Tədqiqatlar onu göstərir ki, Azərbaycanın bütün bölgələri kimi Naxçıvanda da, IX-XIII əsrlərdə anqob və şirdən istifadə etmək bu dövrün ən böyük nailiyyəti olubdur [2, s. 33]. Anqoblar qabların bədii işləməsi üçün geniş imkanlar yaradıbdır. Buna görə də bu dövrün şirsiz və şirli qablarının üzəri boya ilə yanaşı anqobla da işlənilmişdir. Şirli qablardan fərqli olaraq şirsizlərin üzəri cızma xətlərlə, basma, kəsmə üsulu ilə naxışlanmışdır. Şirli qabların üzəri isə fırça ilə naxışlanmışdır. İstər şirli (anqoblu, fayanslı və s.) istərsə də şirsiz qabların çox çeşidli olması onların müxtəlif məqsəd üçün istifadə edilməsi, ayrı-ayrı sənətkarlar tərəfindən düzəldilməsi ilə əlaqədardır. Beyləqan [10, s. 149-160; 8, s. 215], Gəncə [7, s. 134], Qəbələ [9, s. 54-57; 3, s. 28-29], Şabran [3, s. 144-145] və digər yerlərlə yanaşı Naxçıvandakı Orta əsrlər dövrünə aid abidələrin çoxundan bu tip arxeoloji materiallar kifayət qədər aşkar edilmişdir.

Şirli qablarla bağlı aparılan araşdırma zamanı məlum olur ki, Azərbaycanın bütün bölgələri kimi Naxçıvanda da IX əsrdən başlayaraq şirli qablar istehsal edilmişdir. Bütün Yaxın və Orta Şərq ölkələrində, Cənubi Qafqazın digər bölgələrində olduğu kimi Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da şir parlaq və rəngsiz qurğuşun tozundan [qurğuşun oksidindən] alınmışdır. Qurğuşun oksidindən hazırlanan şir qabın səthinə vurulduqda, keramikanı möhkəmləndirmişdir. Onun məsamələrini doldurmaqla su hopdurmasının qarşısını almışdır. Keramikanın rəngini dəyişmədən parıldamasına səbəb olmuşdur. Şirin altında xətlərlə və yaxud müxtəlif rənglərlə vurulan naxışlar isə qaba xüsusi gözəllik vermişdir. Şirlə əsas etibarilə süfrə qabları örtülübdür. Açıq formaya malik qablar (kasa, boşqab, duzqabı və s.) əsasən içəridən, içərisi görünməyən qablar isə (bardaq, çıraq və s.) çöldən şirlənibdir. Bəzi iri boğazlı qablar isə hər iki tərəfdən şirlə örtülübdür. Bədii şirli qabların əsas kütləsini kasalar, boşqablar təşkil edir. IX-X əsrlərə aid şirli qablar əsasən anqoblu düzəldilmişdir. XI əsrdən etibarən dulusçuların metal oksidlərindən alınan rənglərdən geniş istifadə etməsi, bu

halın XII-XIII əsrlərdə daha da geniş yayılması qabların düzəldilməsində, rənglənməsində baş verən dəyişiklik Azərbaycanın digər bölgələri kimi Naxçıvan Muxtar respublikasının Babək rayonunun ərazisinə də təsir etmiş, müxtəlif rəngli şirli qablar düzəldilmişdir. Marqanes oksidindən (şabalıdı rəng), mis oksidindən (yaşıl rəng), dəmir oksidindən (sarı rəng), kobalt oksidindən (mavi rəng) və digər metallardan alınan rənglər keramikaya vurularaq qablara xüsusi gözəllik vermişdir. Şirli qabların hazırlanmasında, xüsusilə onların bədii işləməsində istifadə olunan bir çox texniki üsullar, həndəsi, nəbati, zoomorf ornamentlərdə Yaxın Şərq və Cənubi Qafqazın həmdövr arxeoloji abidələri üçün ümumi olan xüsusiyyətlər var. Qabların naxışlanmasında, formasında və digər əlamətlərində oxşarlıqların əsas səbəblərindən biri qarşılıqlı iqtisadi-mədəni əlaqələr nəticəsində mədəniyyətlərin bir-birinə təsir etməsi olmuşdur. XV-XVII əsrlərdə sarı rənglilərlə yanaşı, ağ rəngli anqob da geniş yayılmışdır. Naxçıvanla yanaşı, belə keramikalar – ağ rəngli anqoblu qablar Qəbələdən [9, s. 54-57], Şamaxıdan [6, s. 419] və digər orta əsr abidələrindən xeyli miqdarda aşkar edilmişdir.

**Nəticə.** Arxeoloji abidələrdən əldə olunmuş IX-X, XI-XIII əsrlərin şirli keramika məmulatından fərqli olaraq, XV-XVII əsrlərdə istehsal olunmuş qabların anqob örtüyü daha qalın və bir qədər səliqəsiz vurulmuşdur. Şirli qabların istehsalında yerli dulusçular Şərq mədəniyyətindən bəhrələnsə də, Azərbaycan keramika məktəbi üçün səciyyəvi olan cəhətləri də qoruyub saxlamışlar. Qabların yaşıl və kobalt şirlə işlənməsi XV-XVI əsrlər, qəhvəyi şirlə şirlənməsi XVII əsr üçün səciyyəvi olmuşdur. Saya qabların şirlənməsində daha çox yaşıl şirə üstünlük verilmiş, qismən də mavi, göy və qəhvəyi rənglərdən istifadə olunmuşdur. XV-XVII əsrlərdə gil qabların həcmi XII əsrin səviyyəsi ilə müqayisədə müəyyən qədər məhdudlaşmış, bədii-texniki səviyyəsi nisbətən zəif olmuşdur.

## ƏDƏBİYYAT

1. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 239 s.
2. Cəbiyev Q.C. Azərbaycan keramikası (XIV-XVII əsrler). Bakı: Elm, 2003, 233 s.
3. Cəbiyev Q.C., Ramazanov H.X., Hüseynova S.B. 1990-cı ildə Qəbələ şəhər yerində aparılmış arxeoloji qazıntıların nəticələri haqqında / Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi konfransın məruzələrinin tezisləri. Bakı: Elm, 1991, s. 28-29.
4. Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan XI-XV əsrlərdə. Bakı: BDU nəşriyyatı, 2001, 396 s.
5. Джидди Г.А. Раскопки средневековой Шемахи // АО, 1980, с. 418-419.
6. Джафарзаде И.М. Историко-археологический очерк Старой Гянджи. Баку: Изд. АН Аз. ССР, 1949, 103 s.
7. İbrahimov F.Ə. Örənqalada yeni quruluşlu dulus küpəsi // AMM. Bakı, 1965, 6 c., s. 212-219.
8. Исмизаде О.Ш. Кабала столица древней Кавказской Албании. Баку: Изд-во АН Азерб. ССР, 1962, s. 54-74.
9. Минкевич-Мустафаев Г.М. Некоторые итоги изучения ремесленного квартала Байлакана / Археологическиеislодования в Азербайджане. Баку: Наука, 1965, с. 149-160.
10. Orucov A.Ş. İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq. Bakı: Elm, 1989, 72 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: x.toqrul@gmail.com***

**Togrul Khalilov**

## MEDIEVAL SETTLEMENTS OF THE SHAHBUZ AND KANGARLI DISTRICTS

There are a significant number of medieval monuments on the territory of the Nakhchivan Autonomous Republic. As a result of the study of archaeological materials obtained from them, it is possible to study handicrafts, economic spheres, economic and cultural ties of tribes, material and spiritual culture of people. This issue was investigated by us, since it has not been comprehensively studied. During the study, the areas of monuments were determined, and the archaeological materials obtained from them were systematized. It was established that medieval monuments on the territory of Shahbuz and Kangarli districts occupy a special place in the archeology of Azerbaijan.

**Keywords:** *Middle Ages, settlements, ceramics, Shahbuz, Kengerli.*

**Тогрул Халилов**

## СРЕДНЕВЕКОВЫЕ ПОСЕЛЕНИЯ ШАХБУЗСКОГО И КЕНГЕРЛИНСКОГО РАЙОНОВ

На территории Нахчыванской Автономной Республики существует значительное количество средневековых памятников. В результате исследования полученных из них археологических материалов возможно изучение ремесленничества, хозяйственных сфер, экономических и культурных связей племен, материальной и духовной культуры людей. Этот вопрос был исследован нами, так как он не был комплексно изучен. В ходе исследования были определены ареалы памятников, а археологические материалы, полученные из них, были систематизированы. Установлено, что средневековые памятники на территории Шахбузского и Кенгерлинского районов занимают особое место в археологии Азербайджана.

**Ключевые слова:** *Средневековье, поселения, керамика, Шахбуз, Кенгерли.*

*(Tarix elmləri doktoru, professor Abbas Seyidov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 12.09.2024**
**Son variant 16.10.2024**